**Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:[1]

***Komissiyanın həmsədri***[2]

*Şahin Mustafayev - Azərbaycan Respublikası Baş nazirinin müavini*

***Komissiyanın üzvləri:***

*Azərbaycan Respublikasının energetika naziri*
*Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası xarici işlər nazirinin müavini*
*Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini*
*Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini*
*Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini*
*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri*
*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri*
*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini*
*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti*
*Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini*
*"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri*
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri*
*"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Baş direktoru*
*"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti*
*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri*
*"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti*
*Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri.*

2. Bu Sərəncamın 1-ci hissəsində göstərilən Dövlət Komissiyasına tapşırılsın ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq əlaqələrini mütəmadi müzakirə edib, bu əlaqələrin genişləndirilməsi və tənzimlənməsi üçün müvafiq tədbirləri həyata keçirsin, əməkdaşlıqda xüsusi əhəmiyyət kəsb edən məsələləri həll etsin və görülən işlər barəsində vaxtaşırı Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə İran İslam Respublikası tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 fevral 2012-ci il
1993

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 11 aprel 2014-cü il tarixli **376** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Respublika" qəzeti, 12 aprel 2014-cü il, 73, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 391)**
2. 15 aprel 2014-cü il tarixli **386** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Azərbaycan" qəzeti, 16 aprel 2014-cü il, 76, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 401)**
3. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384 )**
4. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518)**
5. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677)**
6. 1 noyabr 2019-cu il tarixli **1534** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 2 noyabr 2019-cu il, 244,**

Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1725)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 15 aprel 2014-cü il tarixli **386** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 16 aprel 2014-cü il, 76, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 401**) ilə 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

**~~Komissiyanın həmsədri~~**

-

| | | |
|---|---|---|
| ~~Elmar Məmmədyarov~~ | – | ~~Azərbaycan Respublikasının xarici işlər naziri.~~ |

-

**~~Komissiyanın üzvləri:~~**

-

| | | |
|---|---|---|
| ~~Xələf Xələfov~~ | – | ~~Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~ |
| ~~Azər Zeynalov~~ | – | ~~Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini~~ |
| ~~Niyazi Səfərov~~ | – | ~~Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini~~ |
| ~~Musa Pənahov~~ | – | ~~Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini~~ |
| ~~Bəhram Əliyev~~ | – | ~~Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~ |
| ~~Ədalət Vəliyev~~ | – | ~~Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~ |
| ~~Cavanşir Axundov~~ | – | ~~Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~ |
| ~~Səfər Mehdiyev~~ | – | ~~Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~ |
| ~~Elçin Quliyev~~ | – | ~~Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi~~ |
| ~~Qüdrət Qurbanov~~ | – | ~~Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi~~ |
| ~~Xoşbəxt Yusifzadə~~ | – | ~~Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti~~ |
| ~~Vadim Xubanov~~ | – | ~~Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~ |
| ~~Rauf Vəliyev~~ | – | ~~"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri~~[1] |
| ~~Arif Əsgərov~~ | – | ~~"Azərbaycan Dövlət Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri~~ |
| ~~Etibar Pirverdiyev~~ | – | ~~"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti.~~ |

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518** ) ilə 1-ci hissəsində "**Ədalət Vəliyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini**" sözlərindən sonra "**Natiq Abbasov - Azərbaycan Respublikası energetika nazirinin müavini**" sözləri əlavə edilmişdir.

07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518** ) ilə 1-ci hissəsinin "**Cavanşir Axundov**" sözləri "**Bünyad Hüseynov**" sözləri ilə, "**Mərkəzi Bankının İdarə Heyəti**" sözləri "**Mərkəzi Bankı**" sözləri ilə və "**Arif Əsgərov – "Azərbaycan Dövlət Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri**" sözləri "**Cavid Qurbanov – "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri** " sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini** " sözləri "**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini**" sözləri ilə əvəz edilmişdir.

1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində "**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini** " sözləri çıxarılmışdır.

[2] 1 noyabr 2019-cu il tarixli **1534** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 2 noyabr 2019-cu il, 244, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1725**) ilə 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Komissiyasının tərkibi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

***~~Komissiyanın həmsədri~~***

*~~Şahin Mustafayev — Azərbaycan Respublikasının iqtisadiyyat naziri~~*

***~~Komissiyanın üzvləri:~~***

*~~Azər Zeynalov — Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini~~*
*~~Xələf Xələfov — Azərbaycan Respublikası xarici işlər nazirinin müavini~~*
*~~Elmir Vəlizadə — Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini~~*
*~~İlham Quliyev — Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini~~*
*~~Ədalət Vəliyev — Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini~~*
*~~Natiq Abbasov - Azərbaycan Respublikası energetika nazirinin müavini~~*
*~~Bünyad Hüseynov — Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri~~*
*~~Səfər Mehdiyev — Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini~~*
*~~Fərhad Tağızadə — Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini~~*
*~~Vadim Xubanov — Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini~~*
*~~Etibar Pirverdiyev — "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti~~*
*~~Cavid Qurbanov — "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri~~*

*~~Rauf Vəliyev — "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri~~*
*~~Xoşbəxt Yusifzadə — Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti~~*
*~~Məmmədsadıq Quliyev — Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti sədrinin birinci müavini~~*